# Cənubi Qafqaz: geosiyasi proseslərin yeni trendləri



**_Sirr deyil ki, dünyanın müxtəlif bölgələrində son illər narahatlıq doğuran geosiyasi proseslər baş verir. Bu sırada Cənubi Qafqaz həm bütöv region kimi, həm də orada yerləşən dövlətlərin hər birinin ayrılıqda fəaliyyəti baxımından ekspertlərin maraq dairəsindədir. Aparılan təhlillər göstərir ki, Azərbaycan, Ermənistan və Gürcüstan coğrafi baxımdan qonşu olsalar da geosiyasi aspektdə "həmsərhəd" deyillər – onlar fərqli mövqedədirlər. Onların içərisində ən perspektivli mövqe Azərbaycana məxsusdur. Bu tezisin təsdiqi faktların müqayisəsində özünü açıq surətdə göstərir. Bir məsələ şübhəsizdir ki, rəsmi Bakı postsovet məkanı üçün belə nümunə ola bilən siyasət yeridir. 2019-cu il bu baxımdan xeyli maraqlı il olub._**

### *Bir ildə: üç dövlətin keçdiyi yol*

Ekspertlər hər bir Cənubi Qafqaz ölkəsinin ötən ilki geosiyasi fəaliyyətinin təhlilinə maraq göstərirlər. Azərbaycan, Gürcüstan və Ermənistan həmsərhəd dövlətlərdir, lakin hər birinin fərqli siyasi, iqtisadi, mədəni və geosiyasi "həyat ritmi" vardır. Bu prizmadan yanaşdıqda onların 2019-cu ildə ayrı-ayrı istiqamətlər üzrə fəaliyyətinin ümumiləşdirilməsinin nəzəri və praktiki əhəmiyyəti danılmazdır.

Ekspertlərin fikrinə görə, ötən il Cənubi Qafqazda siyasi proseslərə ən çox təsir göstərən dövlət Rusiya olub. Məhz Moskvaya olan münasibət region dövlətlərinin geosiyasi mövqeyinə ciddi təsir edib. Bundan faydalananlar da, zərər görənlər də olub. Bu tezisin xeyli dərəcədə əsası vardır. Çünki Rusiya 2019-cu ildə yalnız Cənubi Qafqazda deyil, bütün dünyada geosiyasi fəallığını yeni səviyyəyə yüksəldib. Moskvanın Yaxın Şərqdə, Afrikada və Latın Amerikasında varlığı daha çox hiss edilməyə başlayıb. Təbii ki, bu kontekstdə bir neçə əsrdir ki, Cənubi Qafqazın əsas geosiyasi oyunçusu olan Rusiyanın passiv olacağını gözləmək sadəlövhlük olardı.

Siyasi, iqtisadi, enerji, nəqliyyat, təhlükəsizlik, hərbi-müdafiə sferalarında Cənubi Qafqaz dövlətlərinə təsirini daha da gücləndirən Kreml bütövlükdə geosiyasi mənzərənin müəyyənləşməsində həlledici rol oynayıb. Son illər fəal olan Qərb isə kölgədə qalıb.

Bu ümumi qeydlər prizmasından Cənubi Qafqazın hər bir ölkəsinə nəzər saldıqda, kifayət qədər maraqlı və bir sıra məqamlarda təzadlı mənzərə yaranır. Gürcüstandan başlayaq. Bu dövlət 2019-cu ildə siyasi silkələnmələrə məruz qaldı. Bir növ ölkə siyasi sistem və geosiyasi seçim böhranı keçirir. Müxalifət "Gürcü arzusu"nun hakimiyyətini ciddi surətdə laxlada bildi. Etiraz aksiyaları iqtidarın nüfuzunu artırmadı, əksinə, meydana daha çox siyasi qeyri-müəyyənlik gətirdi. Parlament seçkisi məsələsində Bidzina İvanişvilinin komandasının tərəddüdlü və kifayət qədər birmənalı qəbul edilməyən addımlar atması böhranı daha da dərinləşdirdi. Təsadüfi deyil ki, müxalifətin aksiyaları 2020-ci ildə də davam edir.

Bunun fonunda ekspertlər Prezident Salome Zurabişvilinin qonşu ölkələr haqqında ziddiyyətli fikirlər söyləməsinin prosesləri bir qədər də qeyri-müəyyənliyə sürüklədiyini yazırlar. Xüsusilə Azərbaycanla sərhəd məsələsində emosional fikirlər ilk növbədə Gürcüstan dövlətinin vəziyyətini mürəkkəbləşdirdi. Azərbaycanın təmkinli və müdrik davranışı hələlik bu itkini kompensasiya etməyə imkan verir.

Gürcüstan Rusiya ilə münasibətdə də problemlər yaşayır. Məlum parlament hadisələri Moskvanın müəyyən qadağalar tətbiq etməsinə səbəb oldu. Nəticədə, Rusiya ilə Gürcüstan arasında təyyarə reysləri kəsildi və rusiyalı turistlərin ölkəyə axını xeyli zəiflədi. Bu isə yekunda turizmdən Gürcüstanın ancaq 800 milyon dollar gəlir götürməsinə vəsilə oldu. Bir il öncə isə bu rəqəm daha böyük idi.

İndi Gürcüstanın 2019-cu ildə iqtisadi sahədə də uğur əldə edə bilmədiyi aydın nəzərə çarpır. Bu fakt gürcüləri narahat edir.

### *Regionun lideri: Azərbaycan heyrətləndirir*

Ermənistan bütövlükdə 2019-cu ildə daha pis vəziyyətə düşüb. Ermənilər "məxməri inqilab"ın heç bir faydasını görmürlər. İnflyasiya aşağı olsa da, pul gəlirləri çox zəifdir və insanların alıcılıq qabiliyyətinin minimum olması böhranın qarşısını alır. Ötən il "inqilabçı"ların xarici sərmayə ilə bağlı verdikləri vədlərin tam puç olması ilə yadda qalıb. Proses əksinə gedib: Ermənistana daha az sərmayə qoymağa başlayıblar. Bunun başlıca səbəbini yeni erməni iqtidarının populizm sahəsini tərk edə bilməməsində görürlər. Üstəlik, 2019-cu ildə Ermənistanda müxtəlif xarakterli ziddiyyətlərlə dolu hadisələr baş verdi. Aydın oldu ki, rəsmi İrəvan ABŞ və Rusiyanın ucuz oyuncağıdır.

Ötən il Ermənistan Dağlıq Qarabağ münaqişəsi məsələsində də ağır zərbə aldı. Nikol Paşinyanın qondarma rejimi danışıqlara qatmaq təxribatı iflasa uğradı. Azərbaycan Prezidenti İlham Əliyevin bu məsələdə tutduğu qətiyyətli, əsaslandırılmış və təmkinli mövqeyi erməni təbliğat maşınını və diplomatik korpusun "işini" sabun köpüyü kimi dağıtdı. Sözsüz ki, ötən il ermənilərin bu baxımdan ən ağır bir dövrüdür.

Bunun fonunda Ermənistan iqtisadiyyatı inkişafdan xeyli geridə qaldı. Demək olar ki, heç bir regional və beynəlxalq layihədə iştirak edə bilməyən Ermənistan əvvəlki kimi bataqlıqda çapalamadadır. Onun real olaraq yanında olan dövlət yoxdur. Hər bir böyük ölkə Ermənistandan nəyisə almaq və onu öz təsir dairəsinə çəkmək siyasətini davam etdirib.

Azərbaycanla bağlı situasiya isə bundan tamamilə fərqlidir.

Ekspertlər hesab edirlər ki, Azərbaycan regionun yeganə dövlətidir ki, onun yanında olmaq istəyən ölkələr çoxdur. Rəsmi Bakı Rusiya, Amerika, Avropa, İran, Türkiyə və Çinlə bərabərhüquqlu, qarşılıqlı fayda verən münasibətlər sistemini nəinki saxlaya bilib, hətta onu daha da inkişaf etdirib. Xarici siyasətdə Azərbaycanın əldə etdiyi uğurları dünyanın siyasi liderləri etiraf edirlər. Konkret layihələr üzrə həyata keçirilən tədbirlər, müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycanın fəallığını daha da artırması ölkəni regional və qlobal geosiyasi proseslərdə əhəmiyyətli oyunçu edib.

İndi ekspertlər Azərbaycanın regional miqyasla qlobal səviyyə arasında bu dərəcədə səmərəli balans yarada bilməsinin müxtəlif aspektlərini öyrənirlər. Özü də Azərbaycan postsovet məkanı ölkələri içərisində yeganə dövlətdir ki, sosial, siyasi, geosiyasi, idarəetmə və energetika-nəqliyyat sferalarında islahatları yüksək uyğunluq və davamlılıqla həyata keçirir. 2019-cu il bu baxımdan olduqca zəngin faktlarla xarakterizə olunur. Rəsmi Bakının bununla bağlı atdığı addımlar digər region dövlətləri üçün bir nümunə halına gəlib.

Həmin aspektdə Azərbaycan rəhbərliyinin regional əməkdaşlığın müxtəlif sferaları üzrə gerçəkləşdirdiyi əməkdaşlıq formatları geniş marağa səbəb olub. 2019-cu ildə Azərbaycan ikitərəfli, üçtərəfli və çoxtərəfli platformalarda irəli sürdüyü təşəbbüslərin praktiki reallaşmasında böyük uğurlar əldə edib. Bütün bunların nəticəsində Azərbaycan Cənubi Qafqazın yeganə dövlətidir ki, heç bir ziddiyyət və ya geosiyasi problemlərlə qarşılaşmayıb. Əksinə, öz mövqeyini daha da möhkəmləndirib. Daha əhəmiyyətlisi odur ki, bu prosesdə Azərbaycan öz milli maraqlarını daha yüksək dərəcədə təmin etmək imkanı əldə edib, onun manevretmə dairəsi xeyli genişlənib. XXI əsrdə ilk dəfədir ki, bunu xarici ekspertlər açıq etiraf edirlər və belə yazırlar: "Azərbaycan hazırda regional və qlobal geosiyasətdə fəal oyunçulardan biridir"! Cənubi Qafqazın başqa dövlətləri bu aspektdə Azərbaycandan xeyli geridə qalırlar.

Beləliklə, 2019-cu ilə Cənubi Qafqazın üç dövlətinin fəaliyyəti işığında baxdıqda, göz önündə bir sıra hallarda təzadlı, risklərə, qeyri-müəyyənliyə həssas bir tablo yaranır. Bu tablonun qara rəngi Ermənistandır, Gürcüstan müəyyən ziddiyyətləri özündə daşıyan "tutqun rəngdə" görünür. Azərbaycan isə həyat və inkişaf saçan mavi, qırmızı və yaşıl rənglərin harmonik spektrini formalaşdırır. Azərbaycan Cənubi Qafqazın ulduz-dövləti kimi əbədiyyən var olacaq!

*NEWTİMES.AZ*